**Zaman Piriyev**

# APOKALİPSİS QAÇILMAZDIRMI? MƏDƏNİYYƏTLƏRARASI TOQQUŞMA: XİLAS MÜMKÜNDÜRMÜ?

QANUN NƏŞRİYYATI

Əziz oxucu, əlindəki bu kitabda əsrlərdən bəri davam edən mədəniyyətlərarası toqquşma, İslam və Xristian dünyasının qarşılıqlı mədəni təsirləri, Avropada Renessans dövründən sonra formalaşan fəlsəfi cərəyanlar və onların İslam dünyasına təsirləri, siyasət fəlsəfəsi və digər məsələlər müzakirə edilmişdir. Ritorik olaraq qoyulan suallara cavablar tapmaq üçün oxucu, hər üç səmavi dinin Qiyamət öncəsi savaşlarla bağlı nəzəriyyələrinə yönəldilmiş və bu prosesləri önləməyin mümkün olub-olmamağı onun diqqətinə çatdırılmışdır.

Bu məqsədlə bir çox elmi mənbəyə müraciət edilmiş və müəllif tərəfindən şərh edilmişdir.

**Zaman Piriyev**
**APOKALİPSİS QAÇILMAZDIRMI?**
**MƏDƏNİYYƏTLƏRARASI TOQQUŞMA: XİLAS MÜMKÜNDÜRMÜ?**
Bakı, Qanun Nəşriyyatı, 2026, 216 səh.

Ölçü: 140x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 29.04.2026

Redaktor: Zərif Eminbəyli *(Əlyazmalar İnstitutunun elmi işçisi)*
Korrektor: Əyyar Tahir
Mətn dizaynı: Günay Seyidli
Qapaq dizaynı: Mahmud Əliyev

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

AB 022051 / İN 0771

© Zaman Piriyev, 2026
© Qanun Nəşriyyatı, 2026

## *Təşəkkür*

*Əziz oxucum! Bu kitabın ərsəyə gəlməsində öz dəstəyini əsirgəməyən çox dostlarım var. Onlara təşəkkür borcum var. İstəyirəm sən də biləsən ki, bu gün kitab bəşəriyyətə işıq tuta biləcək tək-tük vasitələrdəndir. Bu nəcib işdə öz dəstəyini verən əziz dostum, tanınmış jurnalist Emin Eminbəyliyə, tarixçi alim, professor İlham Həsənova, Psixologiya elmləri üzrə fəlsəfə doktoru Ceyhun Alıyevə, kitabın qapaq dizaynını məsuliyyətlə tamamlayan əziz dostum Mahmud Əliyevə və özünün maddi-mənəvi dəstəyini verən bütün dostlarıma, eləcə də məni bu işə həvəsləndirən həyat yoldaşıma dərindən təşəkkür edirəm.*

*Əziz oxucum! Bu kitabı hazırlayarkən bir çox mənbəyə müraciət etdim. Xeyli kitab oxudum. Bir şeyi dəqiqləşdirdim ki, əgər intellektual cəmiyyət istəyiriksə, insanlara kitabı sevdirmək lazımdır. Sən bu kitabı oxuyacaqsansa, sənə öncədən təşəkkür edirəm. Müasir dünyamızın belə qarışıq vaxtında kitab oxuyan adamlar, işığa doğru mətin addımlarla yeriyən əsl fədakarlardır. Sənə bu yolda uğurlar arzulayıram.*

## Mündəricat

*AMEA Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, professor İlham Həsənovun kitab haqqında rəyi (İlham Həsənov)* ........ 7
*Qaranlıqdakı işıq (Emin Eminbəyli)* ........ 9

Ön söz ........ 11
İnsanın ilk sualı "Niyə" ........ 18
Varlıq fəlsəfəsi barədə ........ 24
Azad təfəkkür necə formalaşmalıdır ........ 36
Millətləşmə prosesində ideologiyaların rolu və qarşıya çıxan problemlər ........ 52
Nihilizm nədir? ........ 63
Fatalizm nədir? ........ 72
Avropa fəlsəfəsinin Kant dövrü ........ 83
Makiavelli – Dövlət üçün hər şey! ........ 94
Jozef Fuşe – Hakimiyyət üçün hər şey! ........ 98
İslam siyasət fəlsəfəsi – fəzilətli dövlət sistemi Ədalət üçün hər şey ........ 114
İslam siyasət fəlsəfəsi haqda danışarkən İbn Rüşdün adını çəkməmək mümkün deyil ........ 126
İbn Xəldunun dövlət nəzəriyyəsi ........ 136
İslam və müasir dünya reallıqları ........ 140
Sivilizasiyalar arasında münasibətlər ........ 148
Mədəniyyətlər arasında konfrantasiya qaçılmazdırmı? ........ 164
Tanrı inancının mənşəyi ........ 167
Əxlaqi dəyərlər universaldırmı? ........ 177
Fərd, əxlaqi davranışlarında azaddırmı? ........ 179
İslami fikir və siyasət tarixi ........ 185
Son bölüm ........ 213

## AMEA Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, professor İlham Həsənovun kitab haqqında

## RƏYİ

Bu əsər bəşər cəmiyyətinin keçdiyi tarixi yolun elmi-fəlsəfi tərəfləri, Tanrı inancı, dinlər və onların mənşəyi, tarix boyunca sivilizasiyalar arasında baş verən konfrantasiyalar, mədəniyyətlərin yaranması, inkişafı və mümkün qarşıdurmalar, nəhayət, bütün dini mətnlərdə gələcəyə dair xəbər verilən Qiyamət öncəsi hadisələr – apokalipsis haqqında, onun bəşəriyyətin sonu olması və bunu ən azından gecikdirə bilməyin mümkün vasitələri haqqında sanballı elmi-kütləvi əsərdir. Müəllif əsər boyunca bir çox elmi mənbəyə müraciət etmiş, elmi əmanətə hörmət göstərərək, sitatları bacardığı qədər olduğu kimi verməyə çalışmışdır. Bu çox doğru və elmilik baxımından ədalətli yanaşmadır. Əsərdə xüsusən, diqqət çəkən məqam, müəllifin güclü mütaliə qabiliyyətinin olması, obyektivlik naminə cəsarətli şəkildə mühakimə edə bilməsi, eləcə də tarixin səbəb-nəticə əlaqələrinə fəlsəfi nöqteyi-nəzərdən yanaşıb, bunu oxucunun düşünüb nəticə çıxara bilməsi üçün oxunaqlı bir hala gətirə bilməsidir. Əsərin dilinin sadəliyi ilə yanaşı, bəzi fəlsəfi terminlərin və mövzu ilə əlaqədar olaraq əsərlər yaratmış elm adamları haqqında “Qeydlər” bölməsində geniş məlumat verməsi, intellektual oxucu kütləsinin formalaşması üçün mükəmməl vəsaitdir.

Azərbaycanda bu mövzuda elmi-kütləvi nəşrlərin azlığı, bəzən isə xarici müəlliflərin əsərlərinin dilimizə tərcümə olunduğunu nəzərə alaraq, bu cür bir əsərin elmi ictimaiyyətdə əks-səda doğuracağına əminliyimi ifadə edirəm. Bu əsərin nəşr olunmasını tövsiyə edir, dünyanın və regionumuzun qarışıq vaxtında bu cür maarifləndirici mövzunu cəmiyyətimiz üçün əhəmiyyətli dərəcədə məqsədəuyğun hesab edirəm.

***İlham Həsənov***

*AMEA Tarix İnstitutunun aparıcı elmi işçisi,*
*tarix üzrə fəlsəfə doktoru, professor*

## Qaranlıqdakı işıq

“Tövrat”dan başlamış “Quran”a qədərki bütün səmavi kitablar insanları elmə çağırır.

Quldarlıqdan başlamış bugünkü demokratik cəmiyyətlərə qədər elm yüksək dəyərləndirilib.

Amma.

Amma.

Bəşəriyyətin mağara dövründən başlamış ən yeni tarix adlandırılan bu gününə qədər daha çox zülm, işgəncə, ağırdan da ağır cəza... elm adamlarına edilib.

Sokratdan üzü bəri, ta Heydər Hüseynova qədər.

Dövlətimizin elmi və elm adamlarını bunca urvatdan saldığı bir zamanda Zaman adlı gənc qardaşımızın belə bir kitab yazması məni təəccübləndirdi və sevindirdi.

Təhsilimizin yaman günə salındığı, elmimizin qroteskləşdirildiyi, alimlərimizin maddi vəziyyətinin Homerin İrinin səviyyəsinə endirildiyi bir vaxtda bir gəncin belə bir əsər ortaya qoyması təəccübləndiricidən və sevindiricidən də bir az o yanadır.

Çünki təhsil ocaqlarımız təhsilləndirmir.

Elm ocaqlarımız elmləndirmir.

Xalq alimini dəyərləndirmir.

Tunelin o biri başında nəinki işıltı görsənmir, əksinə, qaranlıqdan zil qaranlığa çevrilir. Qatılaşa bildikcə qatılaşır.

Belə çıxır ki, gənclərimiz özləri öz üzərlərində işləyir. Benjamin Franklin kimi, Faradey kimi, Siolkovski kimi, Nikola Tesla kimi, İzrail Gelfand kimi...

Kitab haqda ona görə söz demək istəmirəm ki, o mənim təfəkkürümün fövqündədir.

Bu sözü sözsüz ki, alimlər deyəcək.

Amma oxumağı məsləhət görürəm.

Çünki orada həm öyrənməli şey çoxdur, həm də həcmin böyüməsi xətrinə əlavə qatqı yoxdur.

Mənim üçün bu kitab həm də ona görə dəyərlidir ki, qapqaranlıq tunelin o biri başında gözümə iynənin ucu qədər də olsa, işıq dəydi.

Şübhəm yoxdur ki, yaxınlaşdıqca bu işıq həm böyüyəcək, həm də gurlaşacaq. İşıqlı adamlar qaranlıqda daha aydın göründüyü kimi zaman keçdikcə millətin içində işıqlı Zamanların sayı da artacaq.

Tərif ancaq Yaradana məxsus olduğundan kitab və müəllifi haqda bacardığım qədər tərifdən qaçdım.

Millətə belə ağıllı və qeyrətli gənclər Bəxş Edənə göydəki ulduzların sayından da artıq həmd və sənalar olsun.

*Hörmət hissi ilə,*

***Emin Eminbəyli***